# Yaradılış




ƏN BAŞLANĞICDA – HƏTTA ZAMANIN YARANMASINDAN ƏVVƏL – ALLAH VAR İDİ.
O, MAHİYYƏTCƏ VAHİD, BƏRABƏR VƏ ƏBƏDİ OLAN ÜÇ ŞƏXSDƏ MÖVCUD İDİ.
ALLAH TƏNHA DEYİLDİ. O, ÖZLƏRİ İLƏ AHƏNGLİ MƏHƏB-BƏTDƏ ÜNSİYYƏT EDİRDİ.
SONRA GÖYLƏRİ VƏ YERİ YARADAN DA O OLDU.


ALLAH «İŞIQ OLSUN» DEDİ VƏ İŞIQ OLDU.
ALLAH İŞIĞIN YAXŞI OLDUĞUNU GÖRDÜ VƏ İŞIĞI QARANLIQDAN AYIRDI.
ALLAH İŞIĞI «GÜNDÜZ», QARANLIĞI İSƏ «GECƏ» ADLANDIRDI. AXŞAM OLDU, SƏHƏR AÇILDI. BU, BİRİNCİ GÜN İDİ.
ALLAH DEDİ: «SULARIN ARASINDA BİR QÜBBƏ OLSUN VƏ SULARI BİR-BİRİNDƏN AYIRSIN».
BELƏLİKLƏ, ALLAH QÜBBƏ YARATDI, QÜBBƏNİN ALTINDAKI SULARI ONUN ÜSTÜNDƏKİ SULARDAN AYIRDI. BELƏ DƏ OLDU. ALLAH QÜBBƏNİ "GÖY" ADLANDIRDI.




YARADILIŞ 1:3-8


ALLAH DEDİ: «QOY GÖYÜN ALTINDAKI SULAR BİR YERƏ YIĞILSIN Kİ, QURU GÖRÜNSÜN».
BELƏ DƏ OLDU. ALLAH QURUNU «YER», SU YIĞINLARINI İSƏ «DƏNİZLƏR» ADLANDIRDI.
ALLAH GÖRDÜ Kİ, BU, YAXŞIDIR.
SONRA ALLAH DEDİ: «QOY YER ÜZÜ BİTKİLƏR YETİRSİN: TOXUMLAR BİTİRƏN OT-ƏLƏF VƏ TORPAQDA HƏR NÖV BƏHƏRLİ AĞACLAR YETİŞSİN. AĞACLAR MEYVƏ GƏTİRSİN VƏ TOXUMLARI MEYVƏLƏRİNİN İÇİNDƏ OLSUN». BELƏ DƏ OLDU.


YER ÜZÜ BİTKİLƏR YETİRDİ: HƏR NÖV TOXUM BİTİRƏN OT-ƏLƏF VƏ HƏR NÖV AĞAC YETİŞDİ. AĞACLAR MEYVƏ GƏTİRİRDİ VƏ TOXUMLARI MEYVƏLƏRİNİN İÇİNDƏ İDİ.
ALLAH GÖRDÜ Kİ, BU, YAXŞIDIR.
AXŞAM OLDU, SƏHƏR AÇILDI; BU, ÜÇÜNCÜ GÜN İDİ.
YARADILIŞ 1:9-13


YARADILIŞ HƏFTƏSİNİN DÖRDÜNCÜ GÜNÜNDƏ ALLAH GÜNƏŞİ, AYI, ULDUZLARI VƏ NƏHƏNG KAİNATI YARATDI.
ALLAH DEDİ: «QOY GÖY QÜBBƏSİNDƏ GECƏNİ GÜNDÜZDƏN AYIRAN ÇIRAQLAR OLSUN. ONLAR İŞARƏLƏRİ, FƏSİLLƏRİ VƏ GÜNLƏRLƏ İLLƏRİ GÖSTƏRSİN. QOY ONLAR GÖY QÜBBƏSİNDƏ ÇIRAQ OLUB, YER ÜZÜNƏ İŞIQ SAÇSIN».
BELƏ DƏ OLDU. ALLAH İKİ BÖYÜK ÇIRAQ DÜZƏLTDİ: GÜNDÜZÜ İDARƏ ETMƏK ÜÇÜN BÖYÜK ÇIRAQ, GECƏNİ İDARƏ ETMƏK ÜÇÜN KİÇİK ÇIRAQ. O HƏMÇİNİN ULDUZLARI DÜZƏLTDİ.


ALLAH ONLARI GÖY QÜBBƏSİNƏ QOYDU Kİ, YER ÜZÜNƏ İŞIQ SAÇSIN, GÜNDÜZÜ VƏ GECƏNİ İDARƏ ETSİN, İŞIĞI QARANLIQDAN AYIRSIN.
ALLAH GÖRDÜ Kİ, BU, YAXŞIDIR.
AXŞAM OLDU, SƏHƏR AÇILDI; BU, DÖRDÜNCÜ GÜN İDİ.
YARADILIŞ 1:14-19


YARADILIŞ HƏFTƏSİNİN BEŞİNCİ GÜNÜNDƏ ALLAH DƏNİZLƏRİ CANLI MƏXLUQLARLA DOLDURDU.
ALLAH DEDİ: «QOY SULAR ÇOXLU CANLI MƏXLUQLARLA QAYNAŞSIN, YER ÜSTÜNDƏKİ GÖY QÜBBƏSİNDƏ QUŞLAR UÇSUN».
BELƏLİKLƏ, ALLAH NƏHƏNG SU MƏXLUQLARINI VƏ SUDA QAYNAŞAN HƏR NÖV BÜTÜN SÜRÜNƏN CANLI MƏXLUQLARI, HƏMÇİNİN HƏR NÖV BÜTÜN QANADLI QUŞLARI YARATDI.


ALLAH GÖRDÜ Kİ, BU, YAXŞIDIR.
ALLAH ONLARA BƏRƏKƏT VERƏRƏK DEDİ: «TÖRƏYİB ÇOXALIN VƏ DƏNİZLƏRDƏKİ SULARI DOLDURUN, QUŞLAR DA YER ÜZÜNDƏ ÇOXALSIN».
AXŞAM OLDU, SƏHƏR AÇILDI; BU, BEŞİNCİ GÜN İDİ.
YARADILIŞ 1:20-23


YARADILIŞ HƏFTƏSİNİN ALTINCI GÜNÜNDƏ ALLAH HEYVANLARI YARATDI.
ALLAH DEDİ: «QOY YER ÜZÜ HƏR NÖV CANLI MƏXLUQLAR – HƏR NÖV EV HEYVANLARI, SÜRÜNƏN CANLILAR VƏ ÇÖL HEYVANLARI ƏMƏLƏ GƏTİRSİN».


BELƏ DƏ OLDU.
ALLAH HƏR NÖV ÇÖL HEYVANLARINI, HƏR NÖV EV HEYVANLARINI VƏ YERDƏ SÜRÜNƏN BÜTÜN CANLILARI YARATDI.
ALLAH GÖRDÜ Kİ, BU, YAXŞIDIR.
YARADILIŞ 1:24-25






YARADILIŞ 1:31; 2:7.


SONRA RƏBB ALLAH ŞƏRQDƏ YERLƏŞƏN EDENDƏ BİR BAĞ SALDI.
ALLAH DÜZƏLTDİYİ İNSANI ORADA YERLƏŞDİRDİ.
RƏBB ALLAH TORPAQDA GÖZƏL GÖRÜNÜŞLÜ VƏ YEMƏK ÜÇÜN ŞİRİN MEYVƏLİ CÜRBƏCÜR AĞACLAR YETİRDİ.
BAĞI SUVARMAQ ÜÇÜN YERDƏN BİR ÇAY ÇIXIRDI. HƏMİN ÇAY BAĞDAN AXIB GEDİRDİ.
ALLAH YARATDIĞI İNSANA BAĞI BECƏRMƏK İŞİNİ TAPŞIRDI.


BAĞIN ORTASINDA İKİ AĞAC VAR İDİ. BUNLARDAN BİRİ ƏBƏDİ HƏYAT VERƏN HƏYAT AĞACI İDİ. DIGƏRİ İSƏ XEYİRLƏ ŞƏRİ BİLMƏ AĞACI İDİ.
RƏBB İNSANA BAĞDAKI BÜTÜN AĞACLARIN BƏHRƏSİNDƏN YEMƏYƏ İCAZƏ VERƏNDƏ ONA CİDDİ XƏBƏRDARLIQ ETDİ...


"ANCAQ XEYİRLƏ ŞƏRİ BİLMƏ AĞACININ MEYVƏSİNDƏN YEMƏ, ÇÜNKİ ONDAN YEYƏN GÜN HÖKMƏN ÖLƏCƏKSƏN.
YARADILIŞ 2:9,16-17


ALLAH BÜTÜN ÇÖL HEY-VANLARINI VƏ GÖYDƏKİ BÜTÜN QUŞLARI TOR-PAQDAN DÜZƏLTDİ.
SONRA ONLARI İNSANIN YANINA GƏTİRDİ Kİ, ONUN BUNLARI NECƏ ADLANDIRACAĞINI GÖRSÜN.




YARADILIŞ 2:18-24


VƏ ONU İNSANIN YANINA GƏTİRDİ.
O, ADƏMİN HƏYATINDA MÜKƏMMƏL KÖMƏKÇİ OLDU.
ADƏM ÖZ GÖZƏL ARVADININ ADINI "HƏVVA" QOYDU.


ALLAH HƏVVANI ADƏMİN YANINA GƏTİRDİ. BELƏLİKLƏ, ƏN BİRİNCİ NİKAHI O, ÖZÜ BAĞLADI.
ADƏM HƏVVANIN GÖZƏLLİYİNƏ VƏ ALLAHIN ONA VERDİYİ BU ECAZKAR HƏDİYYƏYƏ HEYRAN OLMUŞDU.




YARADILIŞ 3:1-2


ONDA İBLİS YALAN SÖYLƏYƏRƏK HƏVVADA ALLAHIN XEYİRXAHLIĞINA VƏ XASİYYƏTİNƏ ŞÜBHƏ YARATMAĞA ÇALIŞDI.
YOX, ÖLMƏZ-SİNİZ. ƏKSİNƏ, ALLAH BİLİR Kİ, O MEYVƏLƏRDƏN YEDİYİNİZ GÜN GÖZLƏRİNİZ AÇILACAQ VƏ XEYİRLƏ ŞƏRİ BİLƏRƏK ALLAH KİMİ OLACAQSINIZ.
AĞACIN MEYVƏSİ YEMƏK ÜÇÜN YAXŞIDIR, GÖZƏLDİR.
HƏMÇİNİN, MƏN MÜDRİK OLA BİLƏ-RƏM...
BAX, MƏN ÖLMƏDİM. SƏN DƏ YE VƏ SƏN DƏ MÜDRİK OL.


MƏN NƏ ETDİM?!
YOX!
HƏMİN AN ADƏMLƏ HƏVVA İLK DƏFƏ XƏCALƏT HİSSİ KEÇİRDİLƏR. BU, ALLAHIN SEVGİ İLƏ VERDİYİ ƏMRİ POZDUQLARINA GÖRƏ BAŞ VERDİ.
ƏVVƏLLƏR HEÇ VAXT ÖZÜMÜ BELƏ HİSS ETMƏMİŞDİM!
ÖZÜMÜ NATƏMİZ VƏ XƏCALƏTLİ HİSS EDİRƏM.
ADƏMLƏ HƏVVA ƏNCİR AĞACININ YARPAQLARINI BİR-BİRİNƏ TİKƏRƏK ÖZ ÇILPAQLIQLARINI ÖRTMƏYƏ ÇALIŞDILAR.
ONLAR GÜNÜN SƏRİNLİYİNDƏ BAĞDA GƏZİŞƏN ALLAHIN SƏSİNİ EŞİDƏNDƏ QAÇIB GİZLƏNDİLƏR.


HARADASAN?
BAŞDA SƏSİNİ EŞİTDİM VƏ ÇILPAQ OLDUĞUM ÜÇÜN QORXDUM, ONA GÖRƏ DƏ GİZLƏNMİ-ŞƏM.
KİM SƏNƏ BİLDİRDİ Kİ, ÇILPAQSAN?
SƏNƏ YEMƏYİ QADAĞAN ETDİ-YİM AĞACIN MEYVƏSİNDƏN YEMƏMİSƏN Kİ?
MƏNİMLƏ BİRGƏ OLMAQ ÜÇÜN VERDİYİN QADIN O AĞACIN MEYVƏSİNDƏN VERDİ, MƏN DƏ YEDİM.
SƏN NİYƏ BELƏ ETDİN?
İLAN MƏNİ YOL-DAN ÇIXARTDI, O, MƏNƏ ÖLMƏYƏCƏYİMİ, SƏNİN KİMİ OLACA-ĞIMI DEDİ.
O, MƏNƏ YALAN DEDİ...
SƏN BUNU ETDİYİN ÜÇÜN BÜTÜN EV HEYVANLARI VƏ ÇÖL HEYVANLARI ARASINDA LƏNƏT QAZANIRSAN. QARNIN ÜSTÜNDƏ SQRÜNƏCƏKSƏN, BÜTÜN ÖMRÜN BOYU TOR-PAQ YEYƏCƏKSƏN.
MƏN SƏNİNLƏ QADIN ARASINA,
...SƏNİN BALANLA ONUN ÖVLADI ARASINA DÜŞMƏNÇİLİK SALIRAM.
O, SƏNİN BAŞINDAN VURA-CAQ, SƏN DƏ ONU DABANINDAN SANCACAQ-SAN.
ALLAH İBLİSİ VƏ ONUN MƏLƏKLƏRİNİ MƏHV EDƏ BİLƏRDİ, LAKİN BƏŞƏR İRQİNİ SINAMAQ ÜÇÜN ONLARA YAŞAMAĞA İZİN VERDİ; ADAMLARDAN KİMİN ONUN, KİMİN İSƏ ÜSYAN EDƏRƏK İBLİSİN ARDINCA GEDƏCƏYİNİ GÖRMƏK İSTƏYİRDİ.
BURADA ALLAH GƏLƏCƏKDƏ BAŞ VERƏCƏK DÖYÜŞÜ VƏD EDİR: QADININ ÖVLADI İBLİSƏ QALİB GƏLƏCƏK, BƏŞƏRİ-YYƏTİ GÜNAH VƏ ÖLÜMÜN LƏNƏTİNDƏN AZAD EDƏCƏK.










YARADILIŞ 3:16-22


BELƏLİKLƏ, ALLAH İNSANI EDEN BAĞIN-DAN ÇIXARTDI.
ALLAH İNSANLARIN ƏBƏDİ OLARAQ GÜNAH İÇİNDƏ YAŞAMASINI İSTƏMİRDİ.
İNSANI BAĞDAN QOVANDAN SONRA ALLAH HƏYAT AĞACINA APARAN YOLDA BİR ODLU QILINCI OLAN KEŞİKÇİ MƏLƏYİ QOYDU.


BU, ALLAHA İTAƏTSİZLİYİN NƏTİCƏSİ OLAN BİR ÇOX ACI NƏTİCƏLƏRİN BİRİNCİSİ İDİ...
YARADILIŞ 3:23-24


BAĞDAN UZAQDA, ÖZ YENİ EVLƏRİNDƏ ADƏMLƏ HƏVVANIN BİRİNCİ ÖVLADI HABİL DÜNYAYA GƏLDİ.


BİR MÜDDƏT SONRA ONLARIN İKİNCİ OĞLU QABİL DÜNYAYA GƏLDİ.


ONLARIN BAŞQA OĞUL VƏ QIZLARI DA OLDU. BU ÖVLADLAR BÖYÜYÜB ÖZLƏRİ ÜÇÜN AİLƏ QURDULAR.
ALLAHIN İLK YARADILIŞI OLAN ADƏM VƏ HƏVVA GENETİK CƏHƏTDƏN MÜKƏMMƏL İDİ, BUNA GÖRƏ DƏ İLK NƏSİLLƏR UZUN ÖMÜR – BİR NEÇƏ YÜZ İL YAŞAYIRDI.
BAŞLANĞICDA AİLƏ ÜZVLƏRİ YAXIN QOHUMLARI İLƏ EVLƏNİRDİLƏR. ƏLİLLİK YARADAN MUTANT GENLƏR HƏLƏ YOX İDİ.
(SONRALAR MUSA VASİTƏSİLƏ ALLAH YAXIN QOHUMLAR ARASINDA NİKAHI QADAĞAN ETDİ).
HƏMÇİNİN, SU DAŞQININDAN ƏVVƏLKİ MÜHİTDƏ SU ULTRA-BƏNÖVŞƏYİ DALĞALARI SÜZƏRƏK TALVAR KİMİ YER ÜZÜNÜ ÖRTÜRDÜ. ƏTRAF MÜHİT QAT-QAT SAĞLAM İDİ.
TƏMİZ GENLƏRƏ VƏ UZUN ÖMRƏ GÖRƏ ƏHALİ SÜRƏTLƏ ARTMAĞA BAŞLADI.




YARADILIŞ 4:2-4


NİYƏ QƏZƏBLƏN-MİSƏN?
NİYƏ QAŞQABAĞINI SALLAMISAN?
ƏGƏR YAXŞI İŞ ÖRÜRSƏNSƏ, MƏN QƏBUL ETMƏRƏMMİ?
ƏGƏR YAXŞI İŞ GÖRMÜRSƏNSƏ, GÜNAH QAPININ AĞZINDA DURUB.
ONUN MEYİLİ SƏNƏDİR, ANCAQ SƏN ONA ÜSTÜN GƏLMƏLİSƏN.
QABİL İSƏ ALLAHIN SÖZLƏRİNƏ QULAQ ASMAQ İSTƏMƏDİ.
QARDAŞ, GƏL GÖR RƏBB MƏNİM YENİ MƏHSULUMU NECƏ BƏRƏKƏTLƏDİ.
QARDAŞ, BUNLAR Kİ...
XIRT




YARADILIŞ 4:9-16


QABİL ARVADI İLƏ YAXINLIQ ETDİ VƏ ARVADI HAMİLƏ OLUB XANOKU DOĞDU.
AAAYY!
QABİL BİR ŞƏHƏR TİKDİ, ŞƏHƏRƏ OĞLU XANOKUN ADINI VERDİ.
ONUN NƏSLİ MÜXTƏLİF PEŞƏLƏRƏ SAHİB OLDULAR...
BƏZİLƏRİ ÇADIRLARDA YAŞAYIB NAXIRÇI OLDU.
BƏZİLƏRİ MUSİQİ ALƏTLƏRİ DÜZƏLTDİ VƏ MUSİQİÇİ OLDU.
ADAMLAR BÜRÜNC VƏ DƏMİRDƏN ALƏTLƏR HAZIRLAMAĞA BAŞLADILAR. BELƏLİKLƏ, METALLURGIYA YARANDI.










YARADILIŞ 4:25-26


LAKİN ADAMLARIN ƏKSƏRİYYƏTİ ZORAKI VƏ ƏXLAQSIZ OLDU.
QƏTL ETMƏK VƏ XƏSARƏT YETİRMƏK ÜÇÜN METALDAN SİLAH DA DÜZƏLDİRDİLƏR.
HƏR BİR FİKİR GÜNAHLI İDİ, HEÇ KİM DÜZGÜN YAŞAMIRDI.
BƏZİ ADAMLAR DİGƏRLƏRİNİ ÖZLƏRİNƏ QUL EDİRDİLƏR.
ADƏM BİR GÜNAH ETDİ, AMMA ONUN NƏSLİ ÇOXLU GÜNAH ETDİ.
RƏBB İNSANI YARATDIĞINA PEŞMAN OLDU, ÜRƏYİ AĞRIDI.
MÜQƏDDƏS VƏ QÜSUR-SUZ OLAN ALLAH YER ÜZÜNDƏKİ BÖYÜK ŞƏRİ GÖRÜB KƏDƏRLƏNDİ.
YARATDIQLARININ HAMISINI MƏHV EDİB YER ÜZÜNDƏN SİLMƏK QƏRARINA GƏLDİ.
YALNIZ BİR NƏFƏR ALLAHIN GÖZÜNDƏ LÜTF TAPDI.